UOT 159.9.

***Nicat Ramiz oğlu Əliyev,***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*

# YENİYETMƏLİK YAŞ DÖVRÜNDƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN FORMALAŞMASINA TƏSİR EDƏN PSİXOLOJİ AMİLLƏR

***Ниджат Рамиз оглы Алиев,***
*докторант по программе доктора философии*

# ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ВЗАИМООТНОШЕНИЙ В ПОДРОСТКОВОМ ВОЗРАСТЕ

***Nijat Ramiz Aliyev,***
*doctorial student in the proqramme of a Ph.D*
*Institute of Education of the Republic of Azerbaijan*

# PSYCHOLOGICAL FACTORS INFLUENCING THE FORMATION OF MUTUAL RELATIONS IN ADOLESCENCE PERIOD

**Xülasə:** Məqalə yeniyetməlik münasibətlərinin formalaşmasına təsir göstərən sosial-psixoloji faktorları əks etdirir. Bu baxımdan müxtəlif nəzəriyyələr təhlil edilir. Əlaqələrin və davranışın sosial mühitin tələblərindən, valideyn və müəllimlərdən asılılığını göstərilir. Eksperimental yolla yetkinlik yaşına çatmayanlara, böyüklərin yaşlılardan daha güclü təsirlərə malik olduqları aşkarlanır. Qeyd edildiyi kimi, bu fərq müəyyən dərəcədə situasiyadan asılıdır. Müvəqqəti yaşa uyğun xüsusiyyətlərin nəzərə alınmadığı hallarda, yeniyetmənin daxili gərginliyi artdıqca tez-tez münaqişələrə gətirib çıxarır.

***Açar sözlər:*** *tərbiyə, təhsil, şəxsiyyətin formalaşması, yeniyetmə, şəxsiyyət, sosial fəallıq, motivasiya*

**Резюме:** В статье излагаются социально-психологические факторы, влияющие на формирование взаимоотношений в подростковом возрасте. В связи с этим анализируются различные теории. Указывается зависимость взаимоотношений и поведения от требований социальной среды, родителей и педагогов. Экспериментальным путем изучается более сильное влияние старших, нежели пожилых, на формирование личности и взаимоотношений в подростковом возрасте. Отмечается, что эта разница, в определенной степени, зависит от ситуации. Также указывается на то, что в случаях, когда не принимаются во внимание особенности, соответствующие переходному возрасту, внутренняя напряженность подростка возрастает, что приводит к частому возникновению конфликтов.

***Ключевые слова:*** *воспитание, образование, формирование личности, подросток, личность, социальная активность, мотивация*

**Summary:** The article researches socio-psychological factors influencing the formation of mutual relations in adolescence period. Accordingly different theories are analyzed. We emphasize the dependence of mutual relations and behavior on social environment and demands by parents and teachers. It surveys by experimental ways if the formation of personality and mutual relations depend on peers or adults more in adolescence period. One can see that the difference depends on the situation somewhat. It shows that ignoring the features of adolescence period, their internal tension increases, conflict appears frequently.

***Kew words:*** *mentoring, education, the formation of person, adolescence, personality, social activity, motivation*

Yeniyetməlik yaş dövründə yaşıdlarla qarşılıqlı ünsiyyətdə olmaq, kollektivin həyatında iştirak etmək, dostluq münasibətləri qurmaq mühüm əhəmiyyət kəsb edir. Tədqiqatlar (V.A.

Krutetski, İ.S. Kon, Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev və b.) göstərir ki, məktəb həyatı, təlim fəaliyyəti yeniyetmələr üçün cəlbedici olsa da, ondan da daha çox yaşıdları ilə ünsiyyət və münasibətdə olmaq vacib hesab edilir. Əlbəttə, yeniyetməlik yaş dövrünün xüsusiyyətləri yalnız bununla məhdudlaşmır. Psixoloqları maraqlandıran çoxsaylı problemlər içərisində yeniyetmə şəxsiyyətinin formalaşmasında ictimai-tarixi şəraitin təsiri, sosial, psixoloji və bioloji amillərin rolu, onların təsir nisbəti xüsusilə aktualdır.

Prof. Ə.Ə. Əlizadə yazır: "XX yüzillikdə elmi-texniki tərəqqinin görünən və görünməyən tellərlə ailə həyatına nüfuz edirdi. Cəmiyyət dəyişdikcə ailə də dəyişirdi. Ailədə uşaqların inkişafı üçün yeni tərbiyə şəraiti əmələ gəlirdi və bu şəraitdə yeni tipli uşaqlar formalaşırdı"(1, s. 9).

Prof. Ə.Ə. Əlizadə göstərir ki, 20-30-cu illərdə formalaşan paradiqmalar müasir dövr üçün yaramır. Bu ziddiyyətlər getdikcə özünü daha kəskin şəkildə əks etdirir. "Müasir uşaqların psixi inkişafında özünü göstərən yeni xüsusiyyətlər müxtəlif amillərlə şərtlənsə də, bu sahədə ailənin rolu əvəzsizdir" (1, s. 10)

Müasir psixoanalizin sosioloji istiqamətinin yaradıcılarından, onun tanınmış nümayəndələrindən olan Amerika psixoloqu E. Eriksona görə şəxsiyyətin formalaşmasında ictimai-tarixi şərait və şəxsiyyətin özünün fəallığı xüsusi rol oynayır. E. Erikson freydizmin fərd və cəmiyyət başlanğıcdan antoqonist ziddiyyətdə olur tezisini qəbul etmirdi. Fərdin sosial status, ətrafdakılar tərəfindən qəbul olunmaq istəyi onunla cəmiyyət arasında bağlılıq yaradır.

Sosial mühitin, ictimai-tarixi şəraitin yeniyetmə şəxsiyyətinə və onların qarşılıqlı münasibətlərə təsiri problemi psixoloqları daim düşündürüb və bir çox hallarda bir-birilə ziddiyyət təşkil edən mövqedən şərh olunub. Onun ən bariz nümunəsi kimi 4-11 avqust 1966-cı ildə Moskvada keçirilən psixoloqların XVIII Beynəlxalq konqresində sovet psixoloqu L.İ. Bojoviç və Amerika psixoloqu U. Bronfenbrenner arasındakı kəskin diskussiya göstərilir.

Konqresdə L.İ. Bojoviç və U. Bronfenbrenner eyni bölmənin, "Şəxsiyyətin kollektivdə formalaşması" bölməsinin təşkilatçıları idilər.

U. Bronfenbrenner "Sovet və amerikalı məktəblilərin yaşıdları və yaşlıların təsirinə reaksiyası" mövzusunda çıxış edir (2, s. 76). Maraqlıdır ki, bölmənin rus, ingilis və fransız dillərində adı da fərqli idi. Rusca bölmənin adı "Şəxsiyyətin kollektivdə formalaşması", ingilis və fransız dillərində "Şəxsiyyətin inkişafında sosial amillərin rolu" adlanırdı. Hətta bölmənin adının belə fərqli şəkildə verilməsi uşaq və yeniyetmənin şəxsiyyətinin formalaşmasının qanunauyğunluqları barədə sovet və qərb psixoloqlarının necə kəskin şəkildə fikir ayrılıqlarının olması barədə təsəvvür yaradır.

Bu fakt bizim üçün həm də ona görə maraqlıdır ki, ideoloji, siyasi, iqtisadi sisteminin dəyişdiyi müstəqil respublikamızda müasir dövrdə uşaq və yeniyetmələrin şəxsiyyətinin formalaşmasına hansı amillər daha çox təsir edir. Əlbəttə, burada hər bir xalqın inkişaf səviyyəsini, milli mentalitetini də unutmaq olmaz.

Hesab edirik ki, L.İ. Bojoviç və U. Bronfenbrennerin kəskin fikir ayrılıqlarının öyrənilməsi və həmin metodikanın tədqiqatımıza daxil olunması və azərbaycanlı yeniyetmələrin müasir dövrdə öyrənilməsi vacibdir. Həmin konqresdə U. Bronfenbrenner ABŞ, Böyük Britaniya və SSRİ-də uşaq və yeniyetmələrlə apardığı kros-skultural tədqiqatların nəticələri ilə bağlı çıxış edirdi.

U. Bronfenbrennerin yeniyetmələrlə keçirdiyi eksperiment belə idi. İştirakçılara bir neçə qısa hekayə danışılır. Burada əxlaqi sahələrlə bağlı yaşıdlarla yaşlıların tələbləri qarşı-qarşıya qoyulurdu. Məsələn, hekayələrdən biri belədir: "Siz uşaqlarla birlikdə təsadüfən müəllimin itirdiyi vərəqi tapırsınız. Vərəqdə sabah yazacağınız yazı işinin sualları və cavabı yazılıb. Yoldaşlarınızın bir neçəsi təklif edir ki, bu barədə müəllimə heç nə deməsinlər. Bəs sən nə edərdin?" (3, s. 17).

Şagird aşağıdakı mümkün qərarlardan birini seçə bilər:

-Uşaqlara deyərdim ki, kağızın tapılması ilə əlaqədar müəllimə xəbər verək.

-Kim necə istəyir, elə də etsin.

Uşaqlar cavablarını yazdıqdan sonra onlara deyilir: "Hesab edək ki, yoldaşların qərara gəldilər ki, bu barədə müəllimə heç nə deməsinlər. Sən də onlar kimi edərdinizmi?"

Eksperimentdə təxminən oxşar suallar verilir. Böyüklərin, yoxsa yaşıdların daha çox təsiri olduğunu öyrənmək üçün yeniyetmələrə üç fərqli situasiya təqdim olunur. Onlara deyilir:

1. Sizin cavablarınızı yalnız eksperimentator biləcək;

2. Sizin cavablarınız valideynlərə və müəllimlərə göstəriləcək.

3. Sizin cavablarınız sinifdə müzakirə olunacaq.

Eksperimentin nəticələri göstərdi ki, ABŞ-da yeniyetməyə yaşıdların təsiri çoxdur. Böyük Britaniyada isə daha güclüdür. Böyük Britaniyada yeniyetmələr, ingilis uşaqlar amerikalılarla müqayisədə sosial cəhətdən bəyənilməyən, lakin yaşıdları tərəfindən bəyənilən davranışa daha çox meyillidirlər. Yaşlıların fikri isə onlar üçün az əhəmiyyət kəsb edir. U.Bronfenbrenner konqresdəki çıxışında deyir: "Təcrübə göstərir ki, ABŞ-da, xüsusilə İngiltərədə yeniyetmələr böyüklərə qarşı daha çox müxalifətdə olurlar. Yaşıdları isə onları daha çox asosial davranışa təhrik edirlər" (4, s. 120).

Sovet İttifaqından olan yeniyetmələr amerikalı və ingilis yeniyetmələrlə müqayisədə daha çox böyüklərin təsiri altında olmuşlar və sosial davranış qaydalarını pozmağa daha az meyillidirlər. Maraqlıdır ki, yaşıdlarının da bir-birlərinə təsiri böyüklərin təsiri ilə eyni istiqamətdədir.

U. Bronfenbrennerin fikrincə, onun aldığı nəticələr göstərir ki, ABŞ və İngiltərədə yeniyetmələr daha müstəqildirlər və özlərinin əxlaq qaydaları ilə bağlı şəxsi mövqeləri vardır. Bu mövqe böyüklərin mövqeyindən xeyli fərqlənir. SSRİ-də isə yeniyetmələrin davranışı böyüklər tərəfindən istiqamətləndirilir, idarə olunur və bu, sosial dəyər adlandırılır.

Sovet tərbiyə sistemini təhlil edən U. Bronfenbrenner onu heç də birtərəfli qaydada qiymətləndirmir. O, bir tərəfdən etiraf edir ki, uşaq və yeniyetmələrin davranışı böyüklər tərəfindən idarə olunmalıdır. Əgər belə olmasa yeniyetmələrin davranışında sadizm, aqressivlik, sosial normaların pozulması halları güclənər.

Digər tərəfdən amerikalı alim qəbul edə bilmir ki, uşaq şəxsiyyətinin formalaşması yalnız pedaqoji cəhətdən düzgün təşkil olunmuş kollektivdə mümkündür. Yalnız belə olduqda şəxsiyyət cəmiyyətin norma və tələblərinə cavab verə bilər. U. Bronfenbrenner göstərir ki, belə vəziyyətdə tərbiyədə zahiri cəhətdən hər şey uğurlu görünür. Uşaqlar intizama tabe olur, norma və qaydalara riayət edirlər. Əslində isə hər şey göründüyü kimi olmur. Yeniyetmələrin təşəbbüskarlığı azalır, intellektual inkişafa, sərbəst düşünməyə yer qalmır.

U. Bronfenbrenner göstərir ki, belədə yeniyetmələrdə yalnız birtərəfli inkişaf və düşüncə tərzi formalaşır.

Sovet yeniyetmələrinin düşüncə və davranış tərzinin bu şəkildə neqativ qiymətləndirilməsi təbii ki, psixoloq və pedaqoqlar tərəfindən kəskin etirazla qarşılandı. Onlar sübut etməyə çalışırdılar ki, tələblərdə validliyin gözlənilməməsi tərbiyənin idarə olunmasından imtina deməkdir. Uşaq kollektivi və böyüklərin razılaşdırılmış eyni istiqamətli fəaliyyəti, tələbkarlığı zəruridir. Bu, şəxsiyyətə qarşı və şəxsiyyətə təzyiq kimi qəbul edilə bilməz.

Ötən əsrin 60-70-ci illərində şəxsiyyətin kollektivdə formalaşdırılması ideyası çox aktual idi. Bununla bağlı hətta böyük təcrübə də var idi. A.S. Makarenkonun kommunaçılarla iş təcrübəsi çox uğurlu nəticə vermişdi. Kommunaçılar həm kommunada olduqları vaxt, həm də sonralar yüksək nizam-intizam və sosial fəallıq göstərmişlər. A.S. Makarenko göstərirdi ki, tərbiyə işi, ilk növbədə, təşkilati işdir. Lakin burada bir vacib cəhət də vardır ki, tərbiyə işində tələbkarlıq, fəaliyyətin doğru-düzgün qurulması, tərbiyə işi ilə məşğul olanın şəxsi nümunəsi, işə məsuliyyətlə yanaşması və s. diqqətdə saxlanılmalıdır. Vaxtilə F.E. Dzerjinski adına kommunada tərbiyə almış kommunaçılardan biri yazır ki, onlar səyahətlərinin birində Novorossiyskə gəlirlər. Onların bir neçə saat boş vaxtları olur. A.S. Makarenko təklif edir ki, sirkə getsinlər. Sirkdə bütün kommunaçılar böyük maraqla tamaşaya baxırlar. Nəhayət, sirki tərk etmək zamanı gəlir. Anton Semyonoviç uşaqlardan birinə pıçıltıyla deyir ki, vaxtdır, çıxmaq lazımdır. Bir neçə dəqiqədən sonra yüzlərlə uşaq zalı tərk edir. Tamaşaçılar onların belə gözəl gedişini gurultulu alqışlarla qarşıladılar.

Göründüyü kimi, U. Bronfenbrennerin tərbiyədə müstəqillik fikri ilə tam mənası ilə razılaşmaq olmaz. Bununla yanaşı, sovet hakimiyyəti illərində təbliğ edilən ideyaları da tam mənası ilə qəbul etmək düzgün olmazdı. Müasir dövrdə ötən əsrin 50-70-ci illərində tərbiyə ilə bağlı verilən tələblər bir qədər qəribə səslənir və indiki zamanda şagirdlər bunu başa düşməkdə çətinlik çəkirlər. İndi məktəbdə daha çox plürializm, diskussiya, tolerantlıq və s. fikirlər səsləndirilir.

Müşahidələr və tədqiqatın gedişi göstərir ki, hətta eyni sinifdə, yeniyetməlik yaş dövründə hamının eyni fikrə gəlməsi mümkün deyil. Vaxtilə U. Bronfenbrennerin sovet, amerikan və ingilis yeniyetmələrini öyrənərək, onların arasında kəskin fərq olduğunu söyləməsi barədə fikirlərə əsaslansaq onu da deyə bilərik ki, 30-40 il əvvəlki yeniyetmələrlə müasir yeniyetmələri də eyniləşdirmək mümkün deyil. 60-cı illərdə sovet məktəbliləri, onların tərbiyəsi, şəxsiyyətinin formalaşması ilə bağlı yazılanlar bu gün xeyli qəribə və qəbuledilməz kimi görünür. Vaxtilə U. Bronfenbrenner də təəccüblə yazırdı: "Sovet İttifaqında sinif kollektivi, eyni zamanda, pioner təşkilatının üzvləridir. Sinif manqalara bölünür. Hər manqa bir cərgədə oturur. Məhz belə ki, ictimai birliklərdən kollektiv formalaşdırılır. Kollektiv özünün hər bir üzvünün davranışına, xarakterinin inkişafına nəzarət edir, bunun üçün məsuliyyət daşıyır"(5, s.31).

Sonrakı illərdə sovet psixoloqları da (İ.S. Kon, B.S. Bratus, V.A. Petrovski, V.P. Zinçenko və b.) U. Bronfenbrennerin fikirlərinə, araşdırmalarına uyğun fikirlər bildirirdilər. İ.S. Kon yazır: "Pedaqogikada şəxsiyyət yoxdur. Var, bu və ya digər qrupa, sosial qrupa aid edilən pioner, komsomol, böyük məktəbli və s. Belə yanaşma fərdi, fərdiliyi, onun təkrarsızlığını, bənzərsizliyini yox edir. Biz unuduruq ki, təfəkkür tərzi, psixika, xarakter, özünütəsdiqə cəhd, digər dəyərlər çoxsaylı şərtlərdən, amillərdən, intellektin xüsusiyyətlərindən asılıdır" (6, s. 14).

İ.S. Kon daha sonra göstərir ki, tez-tez sual edilir: "Kollektiv, yoxsa şəxsiyyət daha vacibdir?". Cavab verilir ki, əlbəttə, kollektiv. Lakin bir şərtlə ki, kollektiv şəxsiyyətlərdən formalaşsın. Bəzən etika xatirinə işlədilən "Biz" ifadəsi altında məsuliyyətdən qaçmaq dayanır.

"İstənilən sosial əhəmiyyətli nəticə kollektiv fəaliyyət, mütəşəkkillik, nizam-intizam nəticəsində mümkündür. Lakin kollektiv fəaliyyət fərdin təşəbbüskarlığı olmadan uğur qazana bilməz"(6, s. 15).

Sosial iradəsini reallaşdıra bilməyən yeniyetmə özünütəsdiqin digər formalarını axtaracaq. Bəziləri özünü dini cərəyanlarda, digərləri əşyapərəstlikdə və s. axtaracaq.

Hələ vaxtilə A.S. Makarenko göstərirdi ki, şəxsiyyətə münasibətin ən real forması özünü kollektiv daxilində əks etdirir. Bir şərtlə ki, o, öz istəyi ilə kollektivin üzvü olsun. Hansısa kollektivin üzvü olan şəxs kollektiv üçün cavabdehlik daşımır. Çoxsaylı qadağaların olduğu kollektivdə yeniyetmədə konformizm və ya kollektivə qarşı çıxmaq meyli güclənir.

Bir çox hallarda konformizmlə kollektivçilik eyniləşdirilir. Hər iki yanaşmada xarici təsir özünü göstərir. Lakin fərq ondadır ki, birində zahirən tabe olmaq var, ikincidə isə passiv şəkildə tabe olmaq. Tez-tez belə ifadələr eşitmək mümkündür: "Kollektiv həmişə haqlıdır. Kollektivə qarşı çıxan individualistdir". Konformist, faktiki olaraq, kollektivin arxasında gizlənir. Belə də rahatlıq var. Fərdi əxlaqi məsuliyyət olmadan kollektivin qərarı üçün heç kim məsuliyyət daşımır.

Yeniyetmə şəxsiyyətinin formalaşmasında və bu zəmində qarşılıqlı münasibətlərin qurulmasında valideynlərin rolu və təsiri böyükdür. Valideyn – övlad münasibətlərində ata və anaları daha çox qane etməyən yeniyetmələrin ataların ənənələrini davam etdirməmələri ilə bağlı olur. Bundan başqa, uşaqlar heç də həmişə valideynlərin istədiyi və yaxud arzuladığı şəxs olmurlar. "Ənənəvi cəmiyyətlərdə uşaqlar öz valideynləri kimi böyüyürlər. Lakin belədə cəmiyyət çox zəif sürətlə inkişaf edir. Hansı cəmiyyətdə ki, valideynlər istəyirlər ki, onların övladları onlardan fərqlənsin, başqa cür olsun, o cəmiyyət daha tez və sürətlə dəyişir" (6, s. 29).

Biz bu deyilənləri, müasir dövrdə azərbaycanlı yeniyetmələrin şəxsiyyətinin inkişaf istiqamətlərini müəyyənləşdirmək məqsədilə U. Bronfenbrennerin metodikasını modifikasiya etməklə Bakı şəhərinin 151 №-li orta məktəbində eksperiment keçirtdik. Eksperimentə VI-VIII sinif şagirdləri cəlb olunmuşdu. Eksperiment ayrı-ayrı siniflərdə və fərqli vaxtlarda keçirilmişdir.

Eksperimentin ilk mərhələsində yeniyetmə məktəblilərə deyildi ki, verdikləri cavablar ancaq eksperimenti keçirən şəxsə məlum olacaq. Növbəti dəfə eksperiment keçirilərkən qeyd olundu ki, verilən cavablar müəllimlərə və valideynlərə göstəriləcək, müzakirəsi olacaq.

İkinci mərhələdə şagirdlərə bildirildi ki, onların cavabları yoldaşları ilə müzakirə ediləcək.

VI, VII və VIII siniflərdə şagirdlərə 3 sual verilir:

I. Elə hesab edin ki, məktəbin dəhlizindən bir vərəq tapırsınız. Vərəqdə sabah yazmalı olduğunuz yazı işinin cavabları, həlli var. Kağızı müəllim itirib. Bununla bağlı hansı qərar qəbul edərdiniz?

1. Yoxlama yazı işinin cavabını yazıb onu müəllimə verərdiniz.

2. Heç nə etməyib yazını müəllimə verərdiniz.

II. Yaşıdlarının tövsiyə etdiyi, amma valideynlərinizin razı olmadığı filmə baxardınızmı?

III. Valideynlərinizin, yoxsa yaşıdlarınızın məsləhət bildiyi kimi geyinmək istərdiniz?

Suallarla bağlı yeniyetmə məktəblilərin mövqeyi fərqli olmuşdur. Diqqəti cəlb edən odur ki, ayrı-ayrı siniflərin şagirdlərinin cavabları arasında fərq özünü göstərir.

Şagirdlərin ilk suala verdikləri cavabları aşağıdakı cədvəldə veririk.

*Cədvəl 1.*

**Şagirdlərin yazı işi ilə bağlı tapdıqları vərəqin qaytarılıb-qaytarılmamasına dair fikirləri**

| Sorğuda iştirak edən siniflər | Sorğuda iştirak edən şagirdlərin sayı | Cavabların köçürülməsini istəyənlər | Cavabların köçürülməsini istəməyənlər | Suala cavab vermək istəməyənlər |
|---|---|---|---|---|
| VI | 27 | 12 | 11 | 4 |
| VII | 30 | 10 | 13 | 7 |
| VIII | 29 | 7 | 16 | 6 |

Alınan cavablardan məlum olur ki, ayrı-ayrı siniflərdə cavablar fərqlidir. Eyni zamanda, məlum olur ki, VIII sinifdə cavabı köçürmək istəyənlərin sayı VI və VII siniflərlə müqayisədə daha azdır. Əksinə, köçürmək istəməyənlərin sayı nisbətən çoxdur. Bizə elə gəlir ki, VI və VII siniflərə nisbətən VIII sinifdə şagirdlər özünü-gerçəkləşdirməyə daha çox cəhd edirlər. Yeniyetmə məktəblilərin cavabları da dediklərimizin təsdiqinə imkan verir.

"Mən vərəqi onun cavabına baxmadan qaytararam çünki, öz biliyini yoxlamaq daha düzgün olardı" (V. Əliyeva VIII sinif).

"Vərəqi köçürmədən müəllimə verərdim. Çünki köçürsəm, bu, mənim özüm üçün zərərlidir" (K. Quliyeva VIII sinif)

Cavabların köçürülməsini istəməyən şagirdlərin motivi, əsasən belədir ki, bu, onların özünəinamını azaldır. Digər bir vacib motiv isə təlim fəaliyyəti ilə bağlıdır.

"Əgər köçürsəm, özümə ziyan vurmuş olaram. Çünki biliyimin necə olduğundan xəbərim olmaz".

VI sinif şagirdləri hələ yeniyetməlik yaşının ilk mərhələsindədir. Onlarda müəyyən qədər kiçik məktəbliyə xas olan xüsusiyyətlər hələ də qalmaqdadır. Onlar üçün müəllimin gözündə yaxşı görsənmək motivi güclüdür. "Müəllim sonra bilsə ki, mən cavabı köçürmüşəm, mənim üçün çox pis olar."(S. Vəliyeva VI sinif).

VII sinif şagirdləri isə köçürmək istəməmələrinin səbəbini yoldaşları ilə əlaqələndirirlər.

Onu da qeyd etmək istərdik ki, köçürüb-köçürməmək şagirdin eqoistik (şəxsi) və ya ictimai (kollektivçi) motivə üstünlük verməsi ilə də bağlıdır.

Siniflər üzrə yoxlama yazının həllini köçürmək istəməyənlərin faiz nisbəti artır. Belə ki, VI sinifdə köçürmək istəyənlər 44,3 %, köçürmək istəməyənlər 40,8%, cavab verməkdə çətinlik çəkənlər 14,8% təşkil edirsə, VII sinifdə faiz nisbəti belədir: köçürmək istəyənlər 43,3%, köçürmək istəməyənlər 33,3%, cavab verməkdə çətinlik çəkənlər 23,4% olmuşdur.

VIII sinifdə köçürmək istəyənlər 24,2%, köçürmək istəməyənlər 55,5 %, cavab vermək istəməyənlər 20,3% olmuşdur.

"Yaşıdlarının tövsiyə etdiyi, amma valideynlərinin razı olmadığı filmə baxardınızmı?" sualı yeniyetmələrin fəaliyyətlərinə, davranışına, eyni zamanda, şəxsiyyət kimi formalaşmasına valideynlərinin, yaşıdlarının hansı formada təsir imkanını öyrənmək məqsədilə verilmişdir.

Sorğunun nəticələri öz əksini aşağıdakı cədvəldə tapmışdır.

*Cədvəl 2*

**Yaşıdlarının və valideynlərinin tövsiyəsinə üstünlük verilməsi ilə bağlı yeniyetmələrin fikirləri**

| Siniflər | Sorğuda iştirak edənlərin sayı | Valideynin istəyini üstün tutanlar | | Yaşıdların istəyini üstün tutanlar | |
|---|---|---|---|---|---|
| | | Sayı | Faizlə | Sayı | Faizlə |
| VI | 27 | 22 | 80,1 | 5 | 19,9 |
| VII | 30 | 21 | 70,0 | 9 | 30,0 |
| VIII | 29 | 19 | 60,5 | 10 | 39,5 |

Göründüyü kimi, hər üç sinifdə valideynlərin istəyini üstün tutan şagirdlərin sayı daha çoxdur. Lakin siniflər arasında müəyyən fərqlər vardır. VI sinif şagirdlərinin 70,0%-i, VIII sinif şagirdlərinin 60,5%-i valideynlərin istəyini üstün tutduğunu bildirmişdir. Yaşıdlarının istəyini üstün tutanlar isə, müvafiq olaraq, 19,9%, 30% və 39,5% olmuşdur.

Eksperimentin üçüncü mərhələsində məktəblilərə bildirildi ki, onların cavabları yoldaşlarına oxunacaq və onlarla müzakirə ediləcək. Situasiya xeyli dəyişdi. Verilən cavablar aşağıdakı cədvəldə əks olunur.

*Cədvəl 3*

**Yaşıdları ilə müzakirə olunacaq situasiyada şagirdlərin verdikləri cavablar.**

| Siniflər | Şagirdlərin sayı | Valideynin istəyini üstün tutanlar | | Yaşıdların istəyinə üstünlük verənlər | |
|---|---|---|---|---|---|
| | | Sayı | Faizlə | Sayı | Faizlə |
| VI | 27 | 12 | 40,5 | 15 | 59,5 |
| VII | 30 | 10 | 33,3 | 20 | 66,7 |
| VIII | 29 | 7 | 31,2 | 22 | 18,8 |

Cədvəldən göründüyü kimi, valideynlərinin, yoxsa yaşıdlarının məsləhət bildiyi geyimlərə üstünlük verilməsi ilə bağlı siniflər arasında müəyyən fərqlər özünü göstərir. Belə ki, valideynlərinin məsləhət bildiyinə əməl etmək istəyənlər VI sinifdə 40,5%, VII sinifdə 33,3%, VIII sinifdə 68,8% olmuşdur. Eyni ilə bu vəziyyət yaşıdlarının məsləhətlərinə üstünlük verənlərə də aiddir. Yəni bu rəqəm VI sinifdə 59,5%, VII sinifdə 66,7%, VIII sinifdə 68,8% olmuşdur. Digər fərq hər üç sinifdə yaşıdların fikrinə daha çox üstünlük verilməsi ilə əlaqədardır.

Bunun bir neçə səbəbi vardır. İlk növbədə, onu qeyd etmək lazımdır ki, burada yaş xüsusiyyətləri mühüm rol oynayır.

Yeniyetmələr özünütəsdiqə cəhd edirlər. Digər bir cəhət isə onların yoldaşları, yaşıdları arasında özünütəsdiqi ilə bağlıdır.

Burada seçim motivləri də fərqlidir. Belə ki, valideynlərin dediyinə əməl etmək istəyənlər öz fikirlərini belə əsaslandırırlar: "Valideynlərinin həyat təcrübəsi daha çoxdur. Ona görə də onların fikrini seçirəm".

"Valideynlərim məni çox istəyir. Çalışıram ki, onların sözündən çıxmayım".

Öz yaşıdlarının fikrinə üstünlük verməsinə görə "yaşıdları müasirdirlər, daha düzgün seçim edərlər".

"Anamı çox istəyirəm. Lakin geyim barədə mənə elə gəlir ki, o, düzgün məsləhət verə bilmir" və s.

Məlumdur ki, istər intellektual, istər davranış, istərsə də şəxsiyyətin formalaşması baxımından yaşıdlar mühüm rol oynayırlar. Xüsusilə, yeniyetməlik yaş dövründə. Bunu bir sıra tədqiqatçılar (Ə.Ə. Əlizadə, M.Ə. Həmzəyev, D.İ. Feldşteyn, A.V. Petrovski və b.) da göstərirlər. Lakin onu da qeyd edirlər ki, bu xaotik şəkildə yox, müəyyən qədər idarəolunan proses olmalıdır. Vaxtilə A.S. Makarenko göstərirdi ki, tərbiyə, ilk növbədə, təşkilatçılıq işidir. Bura nizam-intizam, tələbkar olmaq, məsuliyyətli ol-

maq, nümunə göstərə bilmək və s. keyfiyyətlər daxildir.

Pedaqoji-psixoloji tədqiqatlar, məktəb təcrübəsi göstərir ki, tərbiyə işinin təşkili, şəxsiyyətin istiqaməti, qarşılıqlı münasibətlərin formalaşması şagirdlərin bu sahədəki biliklərindən, kollektivin təşkilindən çox asılıdır. Digər bir cəhət isə müəllimlərin şagirdlərlə münasibətlərini qura bilmələrindən, arzu və maraqlarını nə dərəcədə nəzərə ala bilmələri ilə bağlıdır. Bu göstərilənlər eyni dərəcədə şagirdlərin təlim fəaliyyətinə təsir göstərir.

Psixoloqlar göstərirlər ki, hər bir yaş dövrü üçün xarakterik olan xüsusiyyətlər vardır. Yeniyetməlik yaş dövrü üçün xarakterik olanlara isə sosiallaşmanı, daxili "mənin" təsdiqi, fiziki gücə meyillilik aid edilir. Onlar da bir-birilə sıx bağlıdır. Məsələn, boyca inkişaf etmiş yeniyetmələr sosial status qazanmaqda o qədər də çətinlik çəkmirlər. Onlar hansısa bir mövqe tutmağa da can atmırlar. Çünki ətrafdakılar onlara daha çox diqqət yetirirlər. Boyca zəif inkişaf edənlər isə hər cəhdlə özünütəsdiq üçün mübarizə aparırlar.

Təcrübə göstərir ki, yeniyetmə qız və oğlanlarda, adətən, özünüqiymətləndirmə adekvat olmur. Yəni ya aşağı, yaxud da yuxarı olur. Bu isə onların qarşılıqlı münasibətlərinə təsir edir. Özünün şəxsi keyfiyyətlərini yüksək qiymətləndirənlərdə özündən razılıq, yoldaşlarına yuxarıdan baxmaq və s. bu kimi keyfiyyətlər formalaşır. Özünüqiymətləndirilməsi aşağı olanların isə sosial fəallığı, ünsiyyətə girə bilmələri və s. aşağı olur. Təbii ki, müəllimlər təlim-tərbiyə prosesində, qarşılıqlı münasibətlərin qurulmasında bu amilləri nəzərə almalıdırlar. Eyni zamanda, təlim prosesində fənnin, mövzunun imkan verdiyi qədər bu məsələləri diqqətdə saxlamalıdırlar.

Yeniyetməlik yaş dövrü üçün xarakterik olan xüsusiyyətlərdən biri də digər yaş dövrləri ilə müqayisədə daxili gərginliyin çox olmasıdır. Bu isə bəzən yaşıdlarla, eləcə də ətrafda olan insanlarla münaqişənin yaranmasına səbəb olur. Bir çox hallarda isə daxili konflikt baş verir. Böyüklər, eləcə də müəllimlər bu amili nəzərə almayıb, təzyiq yolunu seçdikdə yeniyetmədə özünəqapanma yaranır.

Münasibət, qarşılıqlı münasibətlə bağlı müəllim və şagirdlərin yanaşmaları fərqlidir. Bunun səbəblərindən biri də bu amillərə müxtəlif mövqedən yanaşmaqdan irəli gəlir.

Yeniyetməlik yaş dövründə qarşılıqlı münasibətlər, emosional bağlılıq vacib amillərdəndir. Bir çox hallarda hesab edirlər ki, müasir dövrdə sosial şəbəkələrdən istifadə geniş yayıldığına görə, şəxsiyyətlərarası ünsiyyət dairəsi məhdudlaşıb.

Yeniyetmələr əslində yaşıdları ilə ünsiyyətdə olmağa can atırlar. Onlar, eyni zamanda, yaşlılarla da dostluğa xüsusi önəm verirlər. Böyüklərlə dostluq onların ideallarına uyğun gəldikdə daha möhkəm olur.

Ə.Ə. Əlizadə, A.Q. Xripkova və b. hesab edirlər ki, yeniyetmə qızlar yaşıdlarından daha çox özlərindən bir neçə yaş böyük olan adamlarla yoldaşlığa, dostluğa üstünlük verirlər. Yaşıdlarla dostluq etmək istəyi isə şəxsiyyətlərarası münasibətlərdə bərabər hüquqa malik olmaq istəyindən yaranır.

Yeniyetmə məktəblilərin yaş, cins, psixoloji xüsusiyyətlərinin, maraqlarının, motivlərinin, tələbat sferalarının öyrənilməsi, onların şəxsiyyətinin formalaşdırılmasının qanunauyğunluqlarının nəzərə alınması təlim-tərbiyənin səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, müəllimin işi dərs keçməklə məhdudlaşmır. Şagird şəxsiyyətinin formalaşmasında müəllim əhəmiyyətli dərəcədə rol oynayır. Bunun üçün isə o, yaş xüsusiyyətlərindən irəli gələn cəhətləri nəzərə almalıdır. Bununla yanaşı, fərdi xüsusiyyətləri də diqqətdə saxlamaq lazımdır.

**Problemin aktuallığı.** Yeniyetmələrin qarşılıqlı münasibətlərinin pozitiv istiqamətdə qurulması, onların sosiallaşmasına təsir edən psixoloji amillərin vəhdətdə götürülməsi şəxsiyyətin formalaşmasına müsbət təsir göstərir, təlim-tərbiyənin səmərəliliyi yüksəlir.

**Problemin yeniliyi.** Yeniyetmələrin psixoloji xüsusiyyətləri, qarşılıqlı münasibətlərin formalaşmasına təsir edən sosial-psixoloji amillər müəyyənləşdirilir.

**Problemin praktik əhəmiyyəti.** Yeniyetmələrlə işin təşkili, qarşılıqlı münasibətlər və şəxsiyyətin formalaşdırılması ilə bağlı tədqiqat aparan doktorant və dissertantlara öz köməyini göstərəcəkdir.

**Ədəbiyyat:**

1. Əlizadə Ə.Ə. Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
2. XVIII Международный психологический конгресс. М.: Наука, 1969.
3. Прихожан А.М., Толстых Н.Н. Подросток в учебнике и в жизни. М.: Знание, 1990.
4. Вопросы детской и педагогической психологии на XVIII международный конгресс психологов. М.: Наука, 1969.
5. Бронфенбреннер У. Два мира детство: Дети в США и СССР. М.: Наука, 1976.
6. Как построить свое «Я». М.: Педагогика, 1991.

**E-mail**: nicat.aliyev @ socar.az
**Rəyçi**: *psixol.ü.fəls.dok.,dos.*Q.N. Qəhrəmanova
**Redaksiyaya daxil olub:** 03.12.2018.